*Ehtiram Səfərov*

*Füzuli rayonunun işğaldan 2020-ci il 27 sentyabrda azad olan doğma kəndim Qərvəndə həsr edirəm.*

# *Qərvəndim*

*Otuz ildir səndən ayrı düşmüşəm,*
*Uzun ayrılıqdan çox üzülmüşəm*
*Bilməm bu həsrətə necə dözmüşəm?*
*Təbibim,loğmanım,şəkərim,qəndim,*
*Mənim azad elim,doğma Qərvəndim!*

*Düşmən viran etdi vətənimizi,*
*Qələbə "aclığı" bezdirdi bizi.*
*Hamı qınayırdı bu xalqı,düzü*
*Ordumun gücüylə mən ürəkləndim*
*Mənim azad yurdum,doğma Qərvəndim!*

*Dolanım başına,dönüm başına,*
*Gəl küsmə nə olar məni qarşıla*
*Ulu torpağına,ulu daşına*
*Üzümü-gözümü sürtməyə gəldim*
*Mənim ana yurdum doğma Qərvəndim!*

*Yurd yeri,qəbirlər gözləyir bizi*
*Narahat ruhlar izləyir bizi*
*Qoynunda ölməyə səsləyir bizi*
*Məndə darıxmışam,sən də a kəndim*
*Mənim unudulmaz doğma Qərvəndim!*

*Dağından-dərəndən keçəcəm daha*
*O buz bulağından içəcəm daha*
*Köksündə dünyadan köçəcəm daha*
*Neynim tab gətirmir bədənim-bəndim*
*Mənim azad olan doğma Qərvəndim!*